*AMEA*
*Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2019, № 2*
*Səhifə: 239-245* *ISSN: 2663-4406*

**UOT:** 821.512.162(091)

Ayna Babazadə*

# "ZƏRRİNTAC-TAHİRƏ" ROMANINDA BABİLƏR HƏRƏKATI VƏ QADIN AZADLIĞI

***Xülasə***

Əzizə Cəfərzadənin "Zərrintac-Tahirə" romanı XIX əsrdə İranda baş verən Babilər hərəkatının fəal üzvlərindən olan Zərrintac adlı qadından bəhs edir. Zərrintac Qurratuleyn, Tahirə və digər bir çox müxtəlif adlarla çağırılmışdır. Əzizə Cəfərzadə Azərbaycan ədəbiyyatında onun haqqında, türk qadını haqqında ədəbi əsər yazmış ilk yazıçı olmuşdur. Əvvəllər digər hərəkatlara qoşulmasına baxmayaraq, onu Babilər hərəkatına qoşulmağa cəlb edən əsas səbəb hərəkatın prinsipi olan qadın və kişi bərabərliyi idi. Zərrintac qadın hüquqsuzluğuna qarşı çıxaraq, cəmiyyətdə kişi və qadın bərabərliyinin təmin olunmasını istəyirdi. Romanda o, Şərq dünyasında ilk dəfə olaraq çadradan imtina edən cəsur qadın kimi təqdim edilir. Onun başçılığı ilə Qəzvin və Zəncanda baş verən üsyanların bir çoxu əsərdə qeyd edilir. Onun qətli ilə bağlı müxtəlif fikirlər olmasına baxmayaraq, bildirilir ki, o boğulub və quyuya atılıb.

**Açar sözlər:** Babilər hərəkatı, Qürrətüleyn, yüksək amallar, hüquq bərabərliyi, qadın azadlığı

## BABILIAN MOVEMENT AND WOMEN FREEDOM IN THE NOVEL "ZARRINTAJ-TAHIRA"

***Summary***

The novel "Zarrintaj-Tahira" by Aziza Jafarzadeh deals with the woman named Zarrintaj, who was one of the active members of Babilian movement taken place in Iran in XIX century. Zarrintaj was called by different names like Gurratuleyn, Tahira and many others. Aziza Jafarzadeh was the first to have written a literary work about her, originally Turkish woman in Azerbaijani literature. Despite having joined other movements, the main reason of attracting her to join the Babilian movement was women and men equality principle of movement. Zarrintaj wanted to ensure the equality of men and women in society, speaking out against the lawlessness of women. In the novel she is repesented as a brave woman in Eastern world for the first time removing burqa. Her leading many rebellions taken place in Gavin and Zanjan are also mentioned. Although different opinions were expressed about the murder, it is reported that she was drowned and thrown into the well.

**Key words:** Babilian movement, Gurratuleyn, the high aims, the equality of rights, women freedom

## ДВИЖЕНИЕ БАБИЛОВ И СВОБОДА ЖЕНЩИН В РОМАНЕ «ЗАРРИНТАДЖ-ТАХИРА»

***Резюме***

В произведении Азизы Джафарзаде «Зарринтадж-Тахира» говорится о женщине, одной из активисток движения Бабилов, происшедшем в Иране в XIX веке, настоящее имя которой упомянуто как Зарринтадж. Кроме своего имени Заринтадж носила и другие имена (Гюрретюлейн, Тахира и др.). Впервые в азербайджанской литературе об этой женщине, которая была по происхождению азербайджанской турчанкой, написала художественное произведение Азиза Джафарзаде. Зарринтадж привлек в движение Бабилов принцип единства мужчин и женщин этого движения, хотя сначала она присоединилась к другому движению. Зарринтадж выступая против нарушения прав женщин, хотела обеспечения единства мужчин и женщин в обществе. В романе она представляется как отважная женщина, первая в восточном мире откинувшая чадру. Также сообщается о том,

* Xəzər Universiteti. E-mail: babazade-ayna@mail.ru

что она возглавляла многие восстания, происшедшие в Газвине и Зенджане. Хотя озвучивались различные мнения насчет её убийства, больше всего говорится о том, что она была удушена и затем брошена в яму.

**Ключевые слова:** Движение бабилов, Гюрретюлейн, высокая идея, единство прав, свобода женщин

**Giriş.** Bəşər tarixində bir çox təriqətlər, məzhəblər, hərəkatlar mövcud olmuşdur. Onlar müxtəlif məqsədlərə xidmət etmiş, özünəməxsus cəhətləri ilə seçilmişdir. Əksər hərəkatlar din pərdəsi adı altında fəaliyyətə başlasa da, daha sonra fərqli məqsədlərə xidmət etmişdir. Təriqətlərlə bağlı qeydlərində Mirzə Kazım bəy yazırdı: "...İslamda, xüsusilə də, şiələr arasında islahata aparan yeganə yol təriqət təlimidir. Ən sadə bir adamın təriqət silahı ilə görə bildiyi işləri, heç bir ali hökmdar öz qüvvəsi və ağlı ilə görmək iqtidarında deyildir" [1, s.160].

1844-1852-ci illərdə fəaliyyət göstərən Babilər hərəkatı İran tarixində dərin iz buraxmışdır. Həmin dövr dini-siyasi iğtişaşlar dövrü kimi xarakterizə olunur. Antifeodal səciyyə daşıyan bu xalq hərəkatının yaradıcısı Seyid Əli Məhəmməd idi. Babilərin Allah tərəfindən xüsusi seçilmiş insan kimi qəbul etdiyi Əli Məhəmməd əslən şirazlı olub, özünə "Bab" ləqəbi seçmişdir. Sözün mənası "qapı", "səadətə qovuşan", "həqiqətə gedən", "qovuşduran qapı" deməkdir. Yazıçı Ə.Cəfərzadə Bab təxəllüsünün "doğruçu", "bilikli alim", "dediyinə əməl edən" kimi digər mənalarının da olduğu qənaətinə gəlir [2, s.5]. Babilərin dini kitabı "Bəyan" adlandırılaraq Quranla eyni səviyyədə tutulur və müqəddəs kitablar sırasına daxil edilirdi. Hərəkat nümayəndələri tərəfindən haqqa gedən yolun məhz bu kitabda olduğu iddia olunurdu.

Əzizə Cəfərzadənin "Zərrintac-Tahirə" romanının mövzusu teoloji mövzudan götürülsə də, əslində yazıçının niyyəti Babilər hərəkatından yazmaq olmamışdır. Müəllif bu haqda romanda qeyd edir: "Hörmətli oxucum! İstəyirəm biləsən ki, məqsədim babiliyin tarixi və ya babiliyin islamiyyət, xüsusən şiəliyə qarşı mübarizə tarixini göstərmək olmamışdır" [2, s.4]. Ancaq istər-istəməz hadisələrin mahiyyətinin açılmasında yazıçı hərəkatın özünəməxsus cəhətlərini göstərə bilmişdir.

Yazıçı babilərin görüşmə etiketlərinin fərqli olduğunu da qeyd etmişdir. Onların salamlaşarkən salam əvəzinə "Allahu-əkbər", yəni Allah böyükdür, əleykəssalam əvəzinə, yenə Allah böyükdür mənasında olan "Allahu-əzəm" cavabını qaytardıqları bildirilir. Bab nəzəriyyəsi ilə tanışlıq üçün aşağıdakı dialoqa diqqət yetirək: "- Bab, qapı deməkdir. O qapı ki, bu qapıdan girən insanlar Bəqiyyətullahın köməyinən Sahibəz-zamana və onun vasitəsilə həqqə, vücudi-həqqə çatacaqlar. Odu ki, "bey" hərfi bizlərcə müqəddəsdi. Bəqiyyətullah Allahın adı kimi.

- Bəs niyə siz 19 rəqəmini müqəddəs bilirsiniz?

- Çünki "vücud sözündəki hərflərin sayı 19-a bərabərdir, əbcədlə. Odu ki, pərvərdigari-aləmin vücuduna ram olaraq 19 rəqəmi müqəddəs götürülüb. Ay 19 gündən, il 19 aydan ibarətdir. Namaz 19 rükətdi. Oruc 19 gün tutulmalıdır. Hər mömin insan ən azı 19 savab iş görməlidi" [2, s.11].

Verilmiş parçada işlədilən "bey" hərfinə gəlincə qeyd edək ki, babilərin bir-biriləri ilə dialoqa girməzdən əvvəl hərəkat üzvü olduğuna işarə məqsədi ilə üç "B" hərfi ilə başlayan sözdən, şifrəli danışıqlardan istifadə etmişdilər. Məsələn, əsərin digər hissəsində tərəflərdən biri özünü digərinə – "…Bahadır oğlu Bəşrin bəy hamamı", – deyərək, yalnız bu üç "B" hərfi ilə başlayan sözlərdən istifadə etməklə, babi olduğuna işarət etmişdir. Bəzən Babiliyin şiəliyin bir qolu olduğu bildirilsə də, müasir Bəhai nümayəndələri şiəliklə heç bir əlaqələrinin olmadığını, ancaq dinin Qurana zidd olmadığını, islamiyyət qaydalarına oruc tutmaq, namaz qılmaq, fitrə, zəkat vermək və s. də əməl olunduğunu bildirirlər. Mirzə Kazım bəy təriqətə xristianlığın təsirlərini də istisna etmirdi.

Müəllif əsərdə daha çox hərəkatın qabaqcıl nümayəndələrindən biri olan və İran tarixində əbədi, ölməz qəhrəman kimi yadda qalan Tahirə Qürrətüleyn xətti üzərində dayanmış, onun keşməkeşli, mübarizə dolu həyat yolunu işıqlandırmışdır. Həm xarici, həm də daxili aləminin gözəlliyi vəhdət təşkil edən Tahirə Qürrətüleyn yazıçını heyran etmişdir. Əsər 40-45 ilə yazılıb tamamlanmışdır. Bunu əslən azərbaycanlı olan Zərrintac Qürrətüleyn haqqında Azərbaycan ədəbiyyatında ilk bədii əsər hesab etmək olar. Ümumiyyətlə, romanlarında babilər hərəkatı və bəhaizmə toxunmaqla

yazıçı ədəbiyyatda bir ilkə imza atmışdır. Ə.Cəfərzadədən sonra isə bu mövzu bir daha işlənilmədi. Öz vətənindən başqa digər yerlərdə Tahirə Qürrətüleynin adını daşıyan mərkəzlər (ABŞ-da qadınların inkişafı naminə "Tahirə Assosiasiyası", "Tahirə ədalət mərkəzi", Braziliyada "Tahirə Təhsil Kollegiyası") açılmış, haqqında yüksək fikirlər söylənilmişdir. Araşdırma aparan tədqiqatçılar hadisələrin cərəyan etdiyi bir dövrdə, xüsusən də Qəzvin mühitində, cəmiyyətdə qadına zəif bir məxluq kimi baxıldığı bir zamanda güclü təsirlərə baxmayaraq, Qürrətüleynin atdığı qorxmaz addımlara heyranlıqlarını gizlətməmişdilər. Romanın "Özümün ön sözüm" adlı hissəsində yazıçı mövzunu işləməzdən əvvəl qadın qəhrəmanı haqqında bir çox yerlərdə - İngiltərə, Türkiyə, İran və eləcə də Sovetlər Birliyində (Sankt-Peterburq, Moskva, Daşkənd, Düşənbə, Alma-ata, Xarəzm) geniş araşdırma apardığını qeyd edir. Həmçinin Əlyazmalar İnstitutunda işlədiyi müddətdə Zərrintacla bağlı ayrı-ayrı mənbələrdən məlumatlar əldə etmişdir. Müəllif qeydlərində daha çox Tahirə Qürrətüleyn kimi tanınan bu qadın qəhrəmanın onda maraq doğurmasının 1946-47-ci illərə, aspiranturada təhsil aldığı dövrə təsadüf etdiyini bildirir. Həmin il yazıçının fars dili mütəxəssisi olan rəfiqəsi Aniyyə xanım Rzayeva-Ələkbərova fars dilində Zərrintaca məxsus

*Gər be to oftədəm nəzər cehre be cehre ru be ru*
*Şərh dəhəm gəmi-tora nöqtə be nöqtə mu be mu [2, s.4].*

– mətləli qəzəli oxumaqla onda böyük bir maraq oyatmışdır. Bununla da, yazıçı qəhrəmanının izinə düşərək geniş araşdırmalar aparmaq qərarına gəlmişdir.

Roman 1996-cı ildə "Zərrintac-Tahirə" adı altında çap edildikdən sonra müasir dövrün Bəhayi nümayəndələri əsərdə müəllifin babiliyin tarixinə çox yer ayırmadığını və bir çox tarixi təhriflərə yol verdiyini bildirmişdilər [3, s.1; 2]. Əslində, yazıçının məqsədi sadəcə çoxlarının tanımadığı əslən azərbaycanlı türkü-mərd qadın Qürrətüleyni tanıtmaq idi. Ə.Cəfərzadə Qürrətüleynin əsl adının Zərrintac (qızıl tac), T.Həsənzadə və D.Əhməd Fatimə, künyəsinin isə Ümmi Səlimə olduğunu bildirir: "XVIII-XIX əsr Əfşarlar və Qacarlar dövrünün görkəmli Azərbaycan türkləri" monoqrafiyasında tədqiqatçı alim Tahirə Həsənzadə Qürrətüleyn adının mənasının iki cür izah olunduğunu vurğulayır. Birinci ehtimalda bu adın bəlağətli nitq qabiliyyətinə malik olduğuna görə atası tərəfindən verildiyi və "gözün nuru", "əziz övlad" mənalarında işləndiyi bildirilsə də, ikinci ehtimalda adın hələ Şeyxiyyə təriqətində olarkən Əhsai haqqında yazdığı risaləyə görə Seyid Kazım Rəşti tərəfindən verildiyi bildirilir [4, s.141]. Seyid Kazım Rəştinin məşhur şagirdi olan Zərrintac ustadın ona verdiyi ad ilə də tanınmışdır. Yazıçı qəhrəmanının digər adlarını (Zəhra, Fatimə, Zəkiyyə, Qürrətüleyn) əsərdə qeyd etməyi də unutmur. Hələ uşaqlıq illərində yaşıdlarından seçilən Zərrintac erkən yaşlarından təriqətlərə qatılır. O, əvvəlcə bacısı, kiçik bibisi və qardaşı Əbdülvahabın da qoşulduğu Şeyxiyyə təriqətinin nümayəndəsi olur, daha sonra Babilər hərəkatına qoşulur. Xatırladaq ki, Şeyxilik İranda Babiliyin meydana gəldiyi ərəfədə meydana çıxmış və geniş yayılmış təriqət olmuşdur. Həmçinin Şeyxiliyin Babiliyin nəzəri əsaslarını təşkil etdiyi bildirilir. Mənbələrdə doğum tarixi ilə bağlı dəqiq məlumatlar olmasa da, onun ölümü ilə bağlı dəqiq tarix qeyd olunur. 1814-1820-ci illər arası Qəzvində anadan olması ehtimal olunan Qürrətüleynin kimliyi və uşaqlığı ilə bağlı az məlumat verilir. Onun mədrəsədə cavanlara dini biliklər aşılayan Molla Məhəmməd Saleh Baraqanlı (bəzi mənbələrdə Hacı Molla Məhəmmədsaleh Bərəqani kimi də qeyd olunur [4, s.141]) adlı mömin bir kişinin qızı olduğu və erkən yaşlarından razılığı olmadan əmisi Molla Tağının oğlu Molla Məhəmmədlə evləndiyi və bu evlilikdən iki oğlu (Şeyx İbrahim və Şeyx İsmayıl) və bir qızı (Səkinə) olduğu bildirilir. Qürrətüleyn Bab hörmətinə qızını Bahirə adlandırmışdı. Həmçinin Qürrətüleynin Şeyxiyyə təriqətinə qoşulduğu vaxtlardan etibarən həmin təriqətin davamçısı, eyni zamanda tanınmış nümayəndəsi olan Seyid Kazım Rəşti ilə məktublaşması ilə bağlı məlumatlara rast gəlinir. Yaşadığı mühitdə qadınların təhsil alması yasaq edilmiş, yüksək təhsil almaq hüququ yalnız kişilərə şamil edilmişdir. Ancaq Molla Saleh qızının savadlı olmasını istəmiş və bu niyyətlə də cavanlara dərs keçərkən qızının pərdə arxasında dayanmaq şərtilə bu dərslərdə iştirak etməsinə şərait yarat-

mışdı. Digər müəllimlərdən də təhsil alan Zərrintac çox keçmir ki, öz ağlı, savadı, sərbəst mühakimə yürütmək qabiliyyəti ilə digər yaşıdlarından seçilir. Hərəkata qoşulan qızının moizələrini, əsaslı dəlillərini və məntiqi fikirlərini dinləyən Molla Saleh əslində Zərrintacın bir çox məsələlərdə haqlı olduğunu bildiyi halda, cəmiyyətdən ehtiyat etdiyindən onun dediklərini təsdiqləyə bilmir. Zərrintacı daha çox narahat edən məsələlərdən biri torpaqların hakim zümrə əlində cəmlənməsi, eləcə də vəqf torpaqları adı altında ruhanilər tərəfindən mənimsənilməsi olmuşdur. Əkinçilərin, sadə zəhmət adamlarının torpaqsız qalmasını, əldə etdikləri məhsulların mal-mülk sahibləri tərəfindən alınmasını qəbul edə bilməyən Qürrətüleyn ruhaniləri Quranda göstərilən şəriət qaydalarına əməl etməməkdə ittiham edirdi.

Qəzvində yaşayan azəri türklərindən olan Molla Tağı və oğlu Molla Məhəmməd qatı dindar, fanatik olduqlarından Qürrətüleynin fikirlərini, hərəkətlərini heç cür qəbul edə bilmirlər. Qürrətüleynlə həyat yoldaşının dünyaya baxış bucaqlarının fərqli olması onların yollarını ayırması ilə yanaşı, övladların analarından uzaq düşməsinə və hətta görüşlərinin yasaq edilməsinə səbəb olmuşdu. Möminlərin istehzalı sözləri, iftiraları da Molla Məhəmmədin yoldaşından ayrılmaq fikrini qətiləşdirmişdi.

Molla Tağının moizə zamanı Babilər və şeyxiləri təhqir etməsi bir gün sonra onun məsciddə başda Seyid Saleh olmaqla Bab nümayəndələri tərəfindən (T.Həsənzadə bu şəxsin Ağa Hadi olduğu qənaətindədir – A.B.) öldürülməsi ilə nəticələnir. Bununla da tərəflər arasında qarşıdurma daha da gərginləşir; nəticədə Seyid Əli Məhəmməd Bab ələ keçirilmiş, müridi Hacı Məhəmmədəli (Mirzə Kazım bəy Ağa Məhəmmədəli kimi qeyd edir – A.B.) ilə Təbriz meydanında hər kəsin gözü qarşısında edam edilmiş, Seyid Əhməd, Seyid Həsən və qardaşı Seyid Hüseyn mürşidi Babın vəsiyyəti ilə üzdə hərəkatdan imtina etməklə edam cəzasından xilas olmuşdu, baxmayaraq ki, onların bu hərəkəti birmənalı olaraq yaxşı qarşılanmamışdır. Bütün bu faktlar Mirzə Kazım bəyin qeydləri ilə üst-üstə düşür [1, s.154]. Mirzə Kazım bəy də Babilər haqqında əsər yazmazdan əvvəl geniş araşdırma aparmış, bir çox mənbələrə, xüsusən də "Naseh-ət təvarix" əsərinə əsaslanmışdır. 1847-ci ildə Molla Tağının ölümündə daha çox Qürrətüleyn təqsirləndirilərək, hər yerdə təqib olunmuşdur. Şübhəli şəxs kimi tutulan və Qəzvin hökumət idarəsində saxlanılan Qürrətüleyn buradan Tehrana qaçırılaraq bəhailərin lideri olan Bəhaullahın evində saxlanılır. Hadisələrin axarı tək bu gedişlə davam etmir. 1852-ci ildə Babilərin Nəsrəddin şaha qarşı boşa çıxmış sui-qəsd cəhdi isə Qürrətüleynin ölümünü daha da yaxınlaşdırır. Kələntər Mahmud ağanın evində saxlanılan Qürrətüleyn bir müddət "Qəsri-Qacar"da saxlanılmış, fikirlərindən daşınmadığı görülüncə ehtimallara görə "Baği-Elxani" adlı yerdə boğularaq öldürülmüş və quyuya salınmışdır. 32 yaşlı Qürrətüleynin ölümü ilə bağlı müəllif müxtəlif versiyalardan reallığa uyğun, inandırıcı olanları qeyd etmişdi. Əzablı şəkildə ölməyi mərdanəliklə qarşılamaq babilərin xarakterində idi. Qürrətüleyn bir neçə il vaxt uzadıb yaşamaqdansa, tutduğu yolu təkzib etməyib ölməyi daha şərəfli hesab etmişdir. Sərdar Əziz xana təhvil verilmək adı ilə Mahmud xanın evindən aparılan Qürrətüleyn mənzil başına çatmamış öldürülmüşdür. Ölüm səhnəsi olduqca təsirli şəkildə qələmə alınmışdır. Həmçinin çox dərin intuisiyaya malik Qürrətüleynin şahın yanına çatmamış öldürüləcəyini qabaqcadan hiss etmişdir. Digər ehtimallarda qeyd olunur ki, Nəsrəddin şah onu saraya gətizdirib şərt kəsmiş, tutduğu yoldan dönməsinin qarşılığında onunla evlənəcəyini bildirmiş, Qürrətüleyn isə şeirlə cavab yazıb təklifdən imtina etmişdir. Başqa bir ehtimalda isə Qürrətüleynin naməhrəm əlinə keçməkdənsə, hörükləri ilə özünü boğub öldürdüyü bildirilir. Əsərin epiloq hissəsində yazıçı qəhrəmanı haqqında yüksək fikirlər söyləmiş, şeirlərindən nümunə vermişdir.

*Zülfünün ucundan sevdaya qədər,*
*Hicranın qəmindən qovğaya qədər.*
*Dodağınləlidir şəhdim dünyada,*
*Eşqinə bələndin ayağa qədər [2, s.206].*

Ə.Cəfərzadə bu şeirin ibadət-təriqət məqsədi ilə deyil, insan və onun eşqini vurğulamaq niyyəti ilə yazıldığı fikrindədir. Yazıçı qəhrəmanını Babilər hərəkatının tərəfdarı kimi göstərməklə yanaşı, onu istedadlı şair, ana kimi, yeri gələndə alim, filosof, kamil müəllim kimi də təqdim edir. O, qəhrəmanının daxili aləmini, təlatümlərini açıb göstərmək üçün romanın ayrı-ayrı hissələrində Qürrətüleynin şeirlərindən nümunələr vermişdi.

Qürrətüleynin dərin mənalı, azadlıq ruhlu şeirləri təəssüf ki, dövrümüzə çox az sayda gəlib çatmışdır. Bu, onun şeirlərinin daha çox hərəkat yatırılandan sonra tapılıb, məhv edilməsi ilə əlaqələndirilir. Yazıçı Təbrizdə işləyən tədqiqatçı Qulam Məmmədli vasitəsilə onun fars və türkcə bir müləmməsini əldə etmişdir. Daha sonra geniş araşdırmalar aparıb digər şeirləri əldə edən yazıçı çoxunun farsca yazılmasına baxmayaraq, onlarda türk ruhunun hakim olması qənaətinə gəlmişdir. Farsca yazılan şeirləri görsə də, türkcə yazılmış şeirlərin əlyazmasını görməyən yazıçı həmin şeirləri Tahirə yaradıcılığı ilə tanış olan yaşlı nəslin nümayəndələri vasitəsilə öyrənmişdir. Bu haqda bütün qeydlər yazıçının ev arxivində saxlanılan Tahirə Qürrətüleynlə bağlı qovluqda yer almış sənədlərdə öz əksini tapmışdır. Sənədlərin birində onun şeirlər divanının 1951-ci ildə ölümünün yüzilliyi qeyd ediləndə ABŞ-da fəaliyyətlərini davam etdirən bəhailər tərəfindən nəşr etdirildiyi bildirilir [5, s.112].

"Azərbaycanın aşıq və şair qadınları" kitabına Qürrətüleynin də adını daxil edən yazıçı onun şeirlərinin əsasən ictimai motivli olduğunu, zülm və haqsızlıqlara, mövcud ictimai rejimə qarşı yazıldığını bildirir.

Qürrətüleyndə insanları düzgün yola dəvət etmək sevdası onun analıq hissindən də yüksək səviyyədə dayanır. Valideynləri, əmisi, eləcə də həyat yoldaşının məsləhətlərinə, yola gətirmələrinə əhəmiyyət vermir. O, yalnız qarşısına bir məqsəd qoyub və o məqsədə nail olmaq üçün ölümün gözünün içinə dik baxaraq addımlamışdı. Əslində, Qürrətüleynin böyük iddiaları yox idi. O, cəmiyyətdə qadın hüquqsuzluğuna qarşı çıxaraq qadın-kişi bərabərliyinin təmin olunmasını, insanların azad, firavan yaşamasını istəyirdi. Cəmiyyətdə yeni baxışları ilə seçilən Babiliyin əsas prinsiplərindən birinin qadın-kişi bərabərliyi olması məhz bu baxımdan qadın qəhrəmanın diqqətini cəlb etmişdir. Qürrətüleyn qadınlara azadlıq hüququnun verilməsi və onların təhsilə cəlb edilməsilə cəmiyyətin inkişaf edəcəyinə inanırdı. Həmin dövrün şəriət qanunlarına zidd olan bu məsələni ruhanilər mənfi tərəfə yozmağa başlamışdılar. Fanatizmə qarşı çıxan Qürrətüleyn ruhanilərin insanları buxova salan dinlə bağlı uydurmalarına qarşı çıxınca dinsizlikdə, allahsızlıqda ittiham olunmuşdur. Romanın ayrı-ayrı hissələrində isə biz Qürrətüleyni ibadətdə, allaha dua edərkən görürük. Bununla yazıçı ruhanilərin fikrinin əsassız olduğunu göstərməyə çalışmışdır. Allaha yaxından bağlılığı onun yaradıcılığında da özünü açıq şəkildə büruzə verir:

*Gəldim dərgahə bağrı yaralı,*
*Çaki-giriban, başı qaralı,*
*Rəhmət nurundan qoyma aralı*
*Allahım, Allah! Allahım, Allah.*

*Ümüd dəryası cuşandı cuşan,*
*Səbr kasası coşandı, coşan,*
*Qulundur Sənin Tahirə inan*
*Allahım, Allah! Allahım, Allah [6, s.48].*

Şeir parçasından da göründüyü kimi, Allaha itaətdə olan və özünü onun qulu hesab edən birinin ateist ruhlu olması qeyri-mümkündür. Eyni zamanda Qürrətüleyn qadın kommunizmini (qadının bir neçə kişi ilə evlənə bilmə hüququ – A.B.) təbliğ etməkdə ittiham olunsa da, bu haqda heç bir fakta rast gəlinməmişdir. Bəlağətli və fəsahətli danışığı ilə hər kəsi özünə heyran edən və məclisi ələ almağı bacaran bu qadından ruhanilər, vəzirlər xüsusi ehtiyat etmiş, onun şahın da fikirlərinə tə-

sir edə biləcəyindən ehtiyatlanaraq, onunla görüşünü əngəlləməyə çalışmışdılar. Müxtəlif şər və böhtanlarla, hərdən də əxlaqsız kimi qələmə verərək daim onu gözdən salmağa, əzməyə can atmışdılar. Cəsarəti ilə seçilən Qürrətüleyn ilk dəfə olaraq İslam Şərqində hicabı (çadranı) atmış, Xorasanda çadrasız minbərə çıxaraq nitq söyləmiş, ilk qadın təfsirçi olmaqla yanaşı, üləma və kişilərlə mübahisəyə girişmişdir. Babilərin 1848-ci ildə Bədəşt kəndində təşkil olunan toplantısı daha yaddaqalan olmuşdur, belə ki, Qürrətüleyn ilk dəfə olaraq müridlərinin arasına hicabsız, üzüaçıq halda çıxmış, onları heyrətə gətirmişdir. Toplantıdan sonra parçalanma olsa da, bir qrup babi Qürrətüleynin əhatəsində birləşmişdir. Xatırladaq ki, babilər qadınların çadrada saxlanmasına doğru baxmamış, çadraya əbədi dustaq nöqteyi-nəzərindən yanaşmışdılar. Bədəşt konfransında rəhbərliklə bağlı Məhəmmədəli adlı babi ilə Qürrətüleyn arasındakı qarşılaşma babilərin parçalanmasına səbəb olmuşdur. Bir qisim Qürrətüleyn tərəfə, digər qisim qarşı tərəfə keçmiş, bir qrupu isə hərəkatı tərk etmişdir. Bu konfransdan sonra Qürrətüleyn daha çox Tahirə adlandırılmışdır. Tahirə (pak) adının ona Bəhaullah tərəfindən verildiyi bildirilir.

Tərkibi daha çox sadə xalq kütlələrinin nümayəndələrindən ibarət hərəkatın, əsasən feodalizmə qarşı yönələn iğtişaşları qabaqcıl nümayəndələrinin həyatı bahasına başa gəlsə də, müəyyən qədər bu quruluşa zərbə vurmuş, ən azından yuxarı təbəqə nümayəndələrini qorxuya salmış, əslində gözə çarpacaq dərəcədə böyük dəyişikliklərə nail ola bilməsələr də, yaddaqalan bir hərəkata çevrilə bilmişdir. Romanda Mazandaranda istehkamda gizlənən və şaha tələblər irəli sürən babilərin aldadılaraq qılıncdan keçirilməsi tarixi faktlar əsasında qələmə alınmışdı. Həmçinin Zəncanda və Mazandaranda baş vermiş sayca çoxluq təşkil edən üsyanların dördünə Qürrətüleynin özünün başçılıq etdiyi bildirilir. Göründüyü kimi, Qürrətüleyn qəti addımlar ataraq amalları uğrunda ölüm-dirim mübarizəsinə çıxmışdır.

Romanın əvvəlində yardımçı obrazların dialoqları vasitəsilə yazıçı Şeyx Şamil hərəkatını da xatırlatmış, XIX əsrin 40-cı illərindən onun Rusiyaya qarşı ardıcıl olaraq qələbələr qazanmasına işarə etmişdir. Həmçinin sonrakı hissələrdə İranda baş vermiş "Lütlər üsyanı"na toxunulmuş, üsyanın İran tarixində dərin izlər buraxdığı bildirilmişdir. Hakimlərin, ərbabların məsxərəyə qoyaraq "lütlər" adlandırdığı binəsiblərin istəyi ədalətli şah, yeni qanunlar və yeni idarəçilik sistemi olmuşdur. Dəmirçi Kazımın ətrafında toplananlar xümsdən, zəkatdan, eləcə də digər vergi və rüsumlardan cana doyan, təhqir olunan, zorakılıq görən aşağı zümrənin nümayəndələri olmuşdular. Bu üsyan da digər üsyanlar kimi yatırılmışdır. Ümumiyyətlə, kortəbii xarakter daşıma, yetəri qədər silahla təmin olunmama, bəzən üsyan iştirakçılarının bir hissəsinin geri çəkilmə halları baş qaldıran üsyanların şah ordusu tərəfindən yatırılmasına səbəb olmuşdur.

Romanda bir neçə yaddaqalan obrazlar aləmi yaradılmışdır ki, onlardan biri də Qürrətüleynin anası – Bədrünnisa xanımdır. O, övladının taleyindən narahat olan ana kimi xarakterizə olunur. Hadisələrin gərgin axarda davam etməsindən hali olan ana hər vəchlə qızını yola gətirməyə çalışır. Qürrətüleynin bir an öncə heç olmasa balalarının xətrinə dönəcəyini zənn etsə də, zaman keçdikcə ananın bu gümanı da boşa çıxır. Bədrünnisa bu işlərdə daha çox kiçik qaynını təqsirkar bilmiş və ona lənətlər yağdırmışdı. Çünki Zərrintacın hərəkatlara qoşulmasında onun əli və dəstəyi olmuşdur.

Romanda diqqəti cəlb edən obrazlardan biri olan Ətaullah və ya Əta (əsl adı isə Hüseyn olmuşdur – A.B.) Qürrətüleynə yaxın tərəfdaş olmaqla yanaşı, qəlbinin bir küncündə ona gizli sevgi bəsləmişdir. Hər çətin məqamda vaxtında köməyə çatan Ətaullah Qəzvindəki məhəllələrin birində Zərrintacla qonşu olmuş və onunla bir böyümüşdür. Sevgisini ifadə edə bilməsə də, Zərrintac ona olan davranışlardan bu sevgini duymuşdur. Lakin o, sevdasız gəzməkdə, həyatını bütünlüklə Allaha məhəbbətə bağlamaqda israrlı idi. Qürrətüleynin ardıcılları, onun yolunu davam etdirənlər Qürrətiyyə adlandırılmışdır.

M.F.Axundov "Kəmalüddövlə məktubları"nda Qürrətüleyn haqqında məlumat verərək onu atəşin təbə malik, hümmətli, qeyrətli biri kimi təqdim etmişdir. Həmçinin İmam Hüseyn qəbrini ziyarət etdiyi zaman Bab həzrətləri ilə görüşdüyünü və bundan sonra həmin təlimə qoşulub onu yaymağa başladığını qeyd etməklə yanaşı, üsyanlara başçılıq etdiyini də bildirmişdir. Həmçinin

M.F.Axundov "Bəyan" kitabında qeyd olunan iki hökmü – qadınların kişilərlə bərabər hüquqa malik olmasını və üzüaçıq gəzməsini daha hikmətli hesab etdiyini bildirmişdir [7, s.129; 130]. Ancaq M.F.Axundov Babiləri və şeyxləri müsəlman dininə zidd hesab etmişdir [8, s.103].

**Nəticə.** Zamanla mövcud olan bütün təriqətlər insanlara xoşbəxt gələcək vəd etsələr də, onların heç biri bu arzuolunan gələcəyi bəxş edə bilməmişdir. Bu baxımdan da M.F.Axundov təriqətlərə dünyaya fəsad və qarmaqarışıqlıq salan, xalqı bədbəxt və sərgərdan edən bir vasitə kimi baxmış, hər şeyin kökündən həllinin yalnız elmdə olduğunu bildirmişdir [7, s.132, 133]. Janna Dark, Firdovsi qəhrəmanları ilə eyni səviyyədə, hətta onlardan da yüksək pillədə tutulan Tahirə Qürrətüleyn də elmin tərəfdarı kimi çıxış etmiş, xüsusən də qadınların savadlanmasının lehinə olmuşdur. Yazıçı cəmiyyətin mühüm problemlərindən birini romanda qaldırmaqla, öz fikirlərini də Qürrətüleynin obrazı üzərində cəmləyərək ifadə etmişdir.

**ƏDƏBİYYAT**


1. Mirzə Kazım bəy. Bab və babilər, Müridizm və Şamil, Uyğurlar. Bakı, "Hədəf nəşrləri".
2. Cəfərzadə Əzizə. Zərrintac-Tahirə. Bakı, "Göytürk", 1996.
3. Zərrintac-Tahirə romanı haqqında Bakı bəhayilərinin məhvili üzvlərinin qeydləri. Yazıçının ev arxivi: qovluq - 56, v.1-2.
4. Həsənzadə Tahirə. XVIII-XIX əsr Əfşarlar və Qacarlar dövrünün görkəmli Azərbaycan türkləri. Bakı, "Elm və təhsil", 2014.
5. Hacıyev Maqsud. Beş il qonşu diyarda. "Azərbaycan" jurnalı, 1976, №11.
6. Cəfərzadə Əzizənin ev arxivi: iş - E-25, v.48.
7. Mirzə Fətəli Axundov. Kəmalüddövlə məktubları. Bakı, "Gənclik", 1979.
8. Лейла Маликова. Истоки и основные мировоззренческие аспекты бахаизма. Баку: Институт Востоковедения им. акад. З.М.Буниятова НАНА, 2011.
9. Dilqəm Əhməd. Fərqlilər. Bakı, "Teas Press", 2015.